# Ədliyyə sisteminin sürətli inkişafı

**Azərbacanda ədliyyə sisteminin xalqımızın müstəqillik uğrunda mübarizəsini, onun şanlı keçmişini əks etdirən zəngin tarixi vardır. Müstəqil dövlətimizin ədliyyə tarixinin ən şərəfli anları 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranması ilə başlanır. Belə ki, Ədliyyə Nazirliyinin təsis edilməsinə xüsusi əhəmiyyət verilərək 1918-ci il may ayının 28-də - Azərbaycan Demokratik Respublikasının elan edildiyi gün Ədliyyə Nazirliyi də yaradılmışdır.**

Azərbaycan ədliyyəsinin yenidən və əsaslı surətdə formalaşdırılması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ədliyyə sistemi həm sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində Ulu Öndərin diqqətindən kənarda qalmamışdır.

### *Hüquq islahatlarının,*

xüsusən ölkədə ədalətin bərqərar edilməsi üçün məhkəmə-hüquq islahatlarının bugünkü Azərbaycan üçün daha böyük önəm kəsb etdiyini bəyan edən Ümummilli Liderimiz tərəfindən bu islahatlar uğurla həyata keçirilmiş, 1995-ci ildə qəbul edilmiş ilk milli Konstitusiyamız, Hüquqi İslahat Komissiyasının yaradılması və səmərəli fəaliyyəti, qısa müddətdə məhkəmə və hüquq mühafizə orqanlarının fəaliyyətini tənzimləyən yeni qanunvericilik aktlarının qəbulu ölkədə ədliyyə sisteminin sürətli inkişafına zəmin yaratmış, Ədliyyə Nazirliyinin fəaliyyətində əsaslı dəyişikliklər aparılaraq nazirlik dövlətin hüquq siyasətini həyata keçirən əsas orqanlardan birinə çevrilmişdir.

**Ulu Öndərin siyasi kursunun ən layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin dövlət başçısı seçilməsindən sonra isə Azərbaycan ədliyyəsi ölkədə geniş vüsət alan məhkəmə-hüquq islahatları çərçivəsində daha da müasirləşərək yeni-yeni nailiyyətlərə imza atmışdır.**

### *Peşə bayramı ərəfəsində*

ənənəvi olaraq Azərbaycan ədliyyəsinin qazandığı nailiyyətlər qeyd olunur və görülmüş işlər təhlil edilərək gələcəyə nəzər salınır. Ötən dövrdə dövlət başçısı cənab İlham Əliyevin ədliyyə fəaliyyətinin günün tələbləri səviyyəsində qurulması, o cümlədən insan haqlarının etibarlı qorunması, əhaliyə hüquqi xidmətin yaxşılaşdırılması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması barədə tapşırıqlarının dürüst icrası məqsədilə həyata keçirilən tədbirlər uğurla davam etdirilmişdir.

**Eyni zamanda, son illər biometrik eyniləşdirmə sisteminin qurulması istiqamətində görülən əsaslı işlər çərçivəsində 15 yaşı tamam olmamış vətəndaşlar fərdi identifikasiya kartı ilə təmin olunacaqlar. Kartda doğum haqqında, eləcə də elektron sağlamlıq kartındakı informasiyalar, 5 yaşından sonra üzərində fotoşəkil və hər bir şəxslə bağlı dolğun fərdi məlumatlar əks olunacaqdır.**

Həmçinin, dövlət başçısının "Qeyri-hökumət təşkilatlarına elektron xidmətlərin göstərilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanına əsasən qeydiyyata alınmış təşkilatlar barədə elektron məlumat bazası yaradılmış, "Fərdi elektron pəncərə" elektron məlumat sistemi istifadəyə verilmişdir.




### *Nazirliyin Bələdiyyələrlə iş mərkəzi*

tərəfindən yerli özünüidarə orqanlarına metodoloji yardımın göstərilməsi, habelə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi üzrə davamlı tədbirlər görülmüş, qanunvericilik təkmilləşdirilmiş, o cümlədən bələdiyyələrin maliyyə imkanlarının artırılması, vergi məsələləri ilə bağlı müasir texnologiyaların imkanlarından istifadə olunması, dövlət tərəfindən bələdiyyələrə maliyyə yardımlarının ayrılması prosedurunun təkmilləşdirilməsi, şəffaflığın artırılması və s. tədbirləri əhatə edən müvafiq qanunlar qəbul olunmuşdur.

**Ədliyyə Akademiyasında hüquq klinikası, elektron kitabxana yaradılaraq fəaliyyətə başlamış, akademiyanın beynəlxalq əməkdaşlığı genişlənərək Avropanın tanınmış təhsil qurumları ilə əlaqələr qurulmuşdur.**

Həmçinin, məhkumların islah işinin gücləndirilməsi məqsədilə penitensiar müəssisələrdə müasir avadanlıqlar quraşdırılmaqla yeni istehsalat sahələri, idman meydançaları yaradılmış, kitabxana fondu zənginləşdirilmiş, məhkumlara yüksək keyfiyyətli tibbi yardımın göstərilməsi üçün tibb infrastrukturu təkmilləşdirilmiş, müəssisələr yeni müasir tibbi avadanlıqla təmin olunmuşdur.

### *Məlum olduğu kimi,*

BQXK ilə sıx əməkdaşlıqda penitensiar müəssisələrdə vərəmlə mübarizədə müsbət təcrübə əldə olunmuş və 15-ə yaxın dövlətin, o cümlədən bu il Çin, Qırğızıstan və Gürcüstanın məsul nümayəndələri ölkəmizin bu təcrübəsindən bəhrələnmək məqsədilə Bakıya səfərlər etmişlər.

**Cəmiyyətimizdə böyük rəğbətlə qarşılanan nazirlik tərəfindən islah yoluna düşmüş məhkumların sosial adaptasiyasına dair həyata keçirilən yeni qeyri-adi və korrupsiyaya qarşı mübarizədə mühüm rol oynayan bu təcrübənin tətbiqi məhkumların sosial reabilitasiyasına böyük imkan yaratmaqla həm də cəzaçəkmə müəssisələrində saxlanılan digər məhkumların səmərəli islah olunmasına, rejim qaydalarına düzgün əməl etmələrinə, davranışına öz müsbət həvəsləndirici təsirini göstərir və onları qanunazidd hərəkətlərdən çəkinməyə sövq edərək haqqa, ədalətə inamını daha da artırır.**

Bəllidir ki, hər bir demokratik cəmiyyətdə müstəqil məhkəmə hakimiyyəti müstəsna rol oynayır. Ölkə Prezidenti seçilməsinin ilk dövrlərindən ədalət mühakiməsinin səmərəsinin artırılmasına xüsusi diqqət yetirən cənab İlham Əliyevin siyasi iradəsi ilə bu sahədə köklü islahatlar aparılır. Son bir ildə də məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər uğurla həyata keçirilmiş, qanunvericiliyə əsaslı dəyişikliklər edilmiş, o cümlədən hakimlərin fəaliyyətinə kənar müdaxilənin qarşısının alınması və məhkəmələrin maliyyə müstəqilliyinin təminatının əlavə mexanizmləri təsbit edilmişdir.

Həmçinin, ölkəmizdə yuvenal ədliyyənin inkişafı üzrə mühüm addımlar atılmış, bu sahədə YUNİSEF-lə birgə layihə çərçivəsində yeniyetmələrin cinayət işləri üzrə ədalət mühakiməsi həyata keçirilərkən onların hüquqlarının müdafiəsinin gücləndirilməsi, psixoloji aspektlərin nəzərə alınması, yeni yanaşmaların və müasir İKT-lərin tətbiqi, yuvenal ədliyyə sahəsində təlimlərin keçirilməsi və s. ilə bağlı tədbirlər görülmüşdür.

### *Ədliyyə işçiləri*

ulu öndər Heydər Əliyevin müəyyən etdiyi və uğurla həyata keçirilən dövlətçilik amallarına daim sadiq qalaraq ölkəmizin daha da qüdrətlənməsi və demokratik hüquqi dövlət quruculuğu işində möhtərəm Prezidentimiz cənab İlham Əliyevə yardımçı olmağı özlərinin vəzifə və vətəndaşlıq borcu sayırlar.

Peşə bayramı günündə ədliyyə işçiləri Fəxri Xiyabana gedərək bu bayramı bizlərə bəxş etmiş müstəqil Azərbaycan dövlətinin banisi, dahi öndər Heydər Əliyevə öz əbədi ehtiramlarını bildirirlər, Şəhidlər Xiyabanında uyuyan şəhidlərimizin xatirəsini yad edirlər.

**Fürsətdən istifadə edərək, peşə bayramı münasibətilə bütün ədliyyə işçilərini ürəkdən təbrik edir və onlara qanunun aliliyinin, insan haqlarının təmin olunması üzrə şərəfli işlərində müvəffəqiyyətlər arzulayıram.**

**Sevinc HÜSEYNOVA,**
**Gəncə "ASAN xidmət" mərkəzində Ədliyyə Nazirliyinin Qeydiyyat şöbəsinin rəisi**